# SPECA regionunun qlobal qovşağa çevrilməsi üçün potensialı böyükdür

Mərkəzi Asiya ölkələrinin iqtisadiyyatı üçün BMT-nin 1998-ci ildə yaratdığı Xüsusi Proqramın (SPECA) əsas məqsədi üzv dövlətlər arasında əməkdaşlığın inkişafı və dünya iqtisadiyyatına inteqrasiyanın dəstəklənməsidir. Yeri gəlmişkən, bu il SPECA-ya sədrliyi Azərbaycan Respublikası həyata keçirir.




SPECA-nı əhatə edən Azərbaycan, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qığızıstan, Tacikistan və Əfqanıstanın birgə fəaliyyəti imkan verir ki, kosmos ekosistemində, kosmik iqtisadiyyatda, kosmos elmində və tədqiqatında Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) həyata keçirilməsini, yeni töhfələr verilməsini təmin etsinlər. Məlumat üçün bildirək ki, Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyası tərəfindən bu çərçivədə 17 məqsəd qəbul olunub. BMT-nin 2015-ci ilin sentyabr ayında keçirilən tarixi sammitində dünya liderləri tərəfindən qəbul edilmiş "2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"də əks olunan DİM 2016-cı il yanvarın 1-dən rəsmi şəkildə qüvvəyə minib.

Noyabrın 20-də Bakıda işə başlayan və bir həftə davam edəcək "SPECA regionunun qlobal miqyaslı rabitə qovşağına çevrilməsi" mövzusunda iqtisadi forum SPECA proqramının 25 illiyinə həsr olunub. Forumda çıxış edən Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov forumun proqram ölkələri arasında məlumat mübadiləsini asanlaşdıracağını, birgə səyləri dəstəkləyəcəyini bildirib. Qeyd edib ki, SPECA regionda ortaq iqtisadi məqsədlərə nail olmaq, bərabərsizlikləri azaltmaq və regionda rifahı artırmaq məqsədinə əsaslanır. Şərqlə Qərb arasında körpü rolu oynayan Azərbaycan çoxillik transsərhəd ticarət və mədəni mübadilə ənənələri ilə seçilir. Bununla belə, SPECA çərçivəsində ticarət əlaqələri dərinləşdikcə infrastrukturun inkişafına ehtiyac duyulur. Bu sahədə təşəbbüslərin artırılması qarşılıqlı faydalı əməkdaşlıqda önəm kəsb edir.

SPECA fəaliyyətə başladığı vaxtdan nəqliyyat-logistika əlaqələrinə böyük əhəmiyyət verir. Bu gün Orta Dəhliz üzrə yüklərin nəqlinin artırılmasının əhəmiyyəti açıq-aydın hiss olunur. Avrasiya nəqliyyat dəhlizlərinə daha çox yük cəlb etmək, milli iqtisadiyyatları genişləndirmək məqsədi ilə beynəlxalq tranzit imkanlarının artırılması, nəqliyyat əməliyyatlarının rəqəmsallaşdırılması məsələləri vaxtaşırı nəzərdən keçirilir, həmçinin tranzit-logistika əməliyyatlarının rəqabət qabiliyyətinin artırılması üçün mövcud maneələrin aradan qaldırılması ilə bağlı fikir mübadiləsi aparılır. Bu istiqamətdə görülən işlərlə bağlı forumda səsləndirilən faktlara nəzər salaq: 2022-ci ildə Azərbaycanın SPECA ölkələri ilə ticarət dövriyyəsinin dəyəri 3,6 dəfə artaraq 1,3 milyard dollara çatıb. Cari ilin 10 ayında isə həmin göstərici 1,2 milyard dollar təşkil edib ki, bu da ötən ilin eyni dövrünə nisbətən təxminən 16 faiz çoxdur. Bundan əlavə, Azərbaycan proqram çərçivəsində ixracın həcminə görə də müsbət nəticələrə nail olub. Ötən ilin eyni dövrünə nisbətən bu ilin 10 ayında Azərbaycanın proqram iştirakçısı olan ölkələrə ixracı təxminən 82 faiz artıb.

Daha yüksək nəticələr əldə etmək üçün də imkanlar genişdir. Gömrük prosedurlarının sadələşdirilməsi, ticarət maneələrinin azaldılması və tranzit daşımaların optimallaşdırılması kimi tədbirlər bu məsələdə mühüm nəticələr verə bilər. M.Cabbarov SPECA çərçivəsində ölkəmizin Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistanla ikitərəfli faydalı iqtisadi-ticarət tərəfdaşlığı və bu sahədə mövcud potensial barədə fikirlərini bildirib, Azərbaycanın artan nəqliyyat-tranzit potensialının Mərkəzi Asiya ilə əlaqələrin gücləndirilməsinə böyük dəstək verdiyini qeyd edib. Azərbaycanın milli prioritetlərinin, əlverişli biznes və investisiya mühitinin, ərazilərimizin azad edilməsinin yaratdığı yeni reallıqların bu kontekstdə önəmi diqqətə çatdırılıb.

Tədbirdə toxunulan mövzulardan biri də gender bərabərliyinə aid olub. Bildirilib ki, qadınların hüquqlarının möhkəmləndirilməsi, eləcə də onların karyera və təhsil sahələrində yüksəlişinə mane olan amillərin aradan qaldırılması istiqamətində bir çox tədbirlərin artıq həyata keçirildiyinə baxmayaraq, gender və gender bərabərliyi anlayışlarına münasibətdə sərt yanaşmalar cəmiyyətdə dominant mövqeyini saxlamaqdadır. Gender bərabərliyi məfhumunun cəmiyyətə sirayət etməsi üçün lazım olan siyasətin həyata keçirilməsi hələ də arzuolunan səviyyədə deyil. Bu mövzu ilə bağlı forumda SPECA-nın gender və DİM üzrə işçi qrupunun sədri, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Sədaqət Qəhrəmanova "SPECA-nın regionun qlobal bağlantı qovşağına çevrilməsi" mövzusunda çıxış edib. Sədaqət xanımın fikrincə, qadınlarla kişilər arasında iqtisadi fəaliyyətdəki fərq aradan qaldırılmasa, qarşıya qoyulan hədəfə çatmaq olmayacaq. SPECA regionunun qlobal qovşağa çevrilməsi üçün gender bərabərliyini özündə ehtiva edən ümumi problemlərə razılaşdırılmış yanaşmalar tətbiq edilməlidir. Çünki qadınlarla kişilər arasında yaranan gender boşluğu çox ciddi manedir.

Forum çərçivəsində həmçinin təchizat zəncirində məlumatların rəqəmsal transformasiyasına həsr olunmuş sessiya keçirilib. Sessiyada çıxış edən Azərbaycanın Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin əməkdaşı Bəxtiyar Məmmədov rəqəmsal transformasiyanın ölkəmizin prioritetlərindən olduğunu bildirib, rəqəmsallaşma, informasiya və kommunikasiya texnologiyaları sahəsində infrastruktur quruculuğu, müasir texnologiyaların tətbiqi və bu sahədə beynəlxalq əməkdaşlıq barədə məlumat verib. Sonra iştirakçı ölkələrdə rəqəmsal transformasiya sahəsində mövcud təcrübələrdən söhbət açılıb, tərəfdaşlıq potensialı barədə təkliflər səsləndirilib.

BMT-nin Asiya və Sakit Okean ölkələri üzrə İqtisadi və Sosial Komissiyası icraçı katibinin müavini Hirohito Toda proqram ölkələri arasında energetika, nəqliyyat, ətraf mühit, gömrük, informasiya-kommunikasiya texnologiyaları, ticarət və digər sahələrdə əlaqələrin gücləndirilməsinin, gələcəkdə birgə layihələrin gerçəkləşdirilməsinin önəmini qeyd edib. Onun fikrincə, proqram ölkələri iqtisadiyyatlarını şaxələndirməli, rəqəmsal inkişafa, iqlim dəyişikliyi problemlərinin aradan qaldırılmasına, ərzaq təhlükəsizliyinin təmin olunmasına və s. diqqəti artırmalıdırlar.

Tədbirdə Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və Tacikistan nümayəndələri SPECA çərçivəsində əməkdaşlıq, iqtisadi və investisiya potensialı, müxtəlif istiqamətlər üzrə münasibətlərin inkişaf etdirilməsi təşəbbüsləri barədə fikirlərini bildiriblər.

Forum işini davam etdirir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

Azərbaycan. - 2023.- 23 noyabr, № 255.- S.8.